**Azərbaycan Respublikası**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**Şuşanın işğalının 20-ci ildönümü ilə əlaqədar**
**B Ə Y A N A T I**

Qonşu dövlətlərə qarşı məqsədyönlü ərazi iddialarını zaman-zaman həyata keçirən və "böyük Ermənistan" yaratmaq xəyalları ilə yaşayan erməni millətçiləri davamlı olaraq dəhşətli cinayətlərə əl atmış, bəşəriyyətə, insanlığa zidd olan terror və soyqırımı siyasəti yürütmüşlər. Tarixən öz dövləti olmayan, xalqımızın mərhəmətindən, insanpərvərliyindən sui-istifadə edərək yararlanan, Azərbaycan torpaqlarında sığınacaq tapmış erməni millətçilərinin bu məkrli siyasətinin məqsədi azərbaycanlıları əzəli torpaqlarından zor gücünə sıxışdırıb çıxarmaq, həmin ərazilərə digər ölkələrdən ermənilərin köçürülməsi olmuşdur.

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 mindən artıq azərbaycanlı həlak olmuş, 50 min nəfər yaralanmış, müxtəlif dərəcəli xəsarətlər alaraq əlil olmuş, 4.500 nəfər itkin düşmüş, qadınlar, qocalar, uşaqlar əsir və girov götürülmüş, amansız işgəncələrə məruz qalmış, bir milyon nəfər azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, hüquqları kütləvi şəkildə, kobudcasına pozulmuşdur. Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayıl rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, ümumən 17 min kvadratkilometr ərazidə ən məhsuldar torpaqlarımız zəbt olunmuşdur.

Bu işğalçılıq siyasətinin tərkib hissəsini təşkil edən, beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulması ilə nəticələnən, Azərbaycanın tarixən mədəniyyət beşiyi sayılan, dünyaya xalqımızın zəngin mədəni irsini tanıtdıran görkəmli şəxsiyyətlər, yazıçılar, şairlər, musiqiçilər bəxş etmiş Şuşa şəhərinin işğal olunmasından iyirmi il keçir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 20-ci ildönümü haqqında 9 aprel 2012-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamda göstərilir: "Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın aqressiv etnik təmizləmə siyasəti ilə üz-üzə qaldı. Təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi. Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Erməni vandalları işğal vaxtı minlərlə eksponatı olan muzeyləri talan etdilər, yüzlərlə tarix-mədəniyyət abidəsini dağıtdılar, müqəddəs məbədgah və məscidləri təhqirlərə məruz qoydular, çox sayda nadir əlyazma nümunələrini məhv etdilər, təhsil və səhiyyə ocaqlarını xarabazara döndərdilər." Sərəncamda həmçinin Şuşanın işğalının 20-ci ildönümü ilə əlaqədar müvafiq anma mərasimlərinin təşkili, Tədbirlər Planının hazırlanıb həyata keçirilməsinin təmin edilməsi qərara alınmışdır. Şuşanın işğalının ildönümü şuşalı məcburi köçkünlərin ölkəmizdə məskunlaşdığı bütün ərazilərdə və respublikanın hüdudlarından kənarda, həmçinin Azərbaycanın diaspor təşkilatlarının keçirdiyi çoxsaylı tədbirlərlə qeyd olunacaqdır.

01 may 2012-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 20 illiyi ilə əlaqədar Avropa Parlamentinə, Avropa Şurasının Parlament Assambleyasına və dünya parlamentlərinə müraciət qəbul etmişdir. Milli Məclis adı çəkilən nüfuzlu beynəlxalq qurumları nəinki Cənubi Qafqaz bölgəsində, həm də Bütün Avropada sülh və sabitlik üçün təhlükə törədən bu münaqişənin həllində öz səylərini birləşdirməyə, Ermənistan Respublikasının işğalçılıq siyasətindən əl çəkməyə sövq edilməsinə çağırmışdır.

Qeyd olunmalıdır ki, 289 kvadratkilometr ərazisi olan Şuşa şəhərində işğaldan əvvəl 24.900 əhali yaşayırdı.

Bu təcavüzün faciəli nəticələri təkcə Azərbaycan ərazilərinin zəbt edilməsi ilə məhdudlaşmır. Beş minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı, Qarabağ dövlət tarix, xalq tətbiqi sənət və diyarşünaslıq muzeyləri, həmçinin Xan qızı Xurşidbanu Natəvanın sarayı, Ağabəyim Ağanın qəsri, Qarabağ xanlığı kompleksi, İbrahim Xəlil xanın mədrəsəsi, Şuşa yaxınlığındakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının ekspozisiyaları dağıdılmış, talan olunmuş, kitabxanalar yandırılmışdır.

Yeri gəlmişkən, hələ 1977-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Şuşa şəhərinin tarixi hissəsini Tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmiş, bənzərsiz təbiəti olan, istirahət və turizm mərkəzi kimi tanınan bu şəhərdə geniş quruculuq işləri aparılmış, Azərbaycan mədəniyyəti və incəsənətinin böyük simaları Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün ev-muzeyləri təşkil olunmuş, görkəmli şair M.P.Vaqifin məqbərəsi açılmış, bu dünya şöhrətli söz-sənət ustadlarının abidələri ucaldılmışdı.

İşğal nəticəsində təkcə canlılara deyil, həm də abidələrə qəsd edən erməni millətçiləri Şuşa əhalisinə mənəvi-psixoloji zərbə vurmaqla, insanlara güllə atmaqla kifayətlənməmiş, Azərbaycan xalqının dünya şöhrətli korifey sənətkarlarının bu şəhərdəki heykəllərini də güllələbaran etmişlər.

Erməni millətçiləri mövcud cəzasızlıq şəraitindən yararlanaraq, çoxsaylı toponimlərimizi dəyişdirməklə, Şuşa şəhəri ətrafında yerləşən, qədim bürünc dövrünə aid yüzlərlə məzarda arxeoloji qazıntılar aparmaqla, beynəlxalq hüquq normalarını pozmaqla daha bir saymazyana münasibət nümayiş etdirmişlər. Ermənilər zəbt olunmuş Azərbaycan ərazilərində soydaşlarımızın qəbirlərini sökür, mərmər daşları, qəbirüstü abidələri qarət edirlər. İşğal zonasındakı meşələr talan olunur, təbiətin incisi sayılan çinarlıqlar kütləvi şəkildə doğranıb aparılır, məhv edilir.

Ermənistan Respublikası bütün dünyanın gözü qarşısında Azərbaycanın unikal mədəni sərvətlərini kütləvi şəkildə məhv etməkdə davam edir. Belə ki, respublikamızın işğal edilmiş ərazilərində 927 kitabxana, ölkə və dünya əhəmiyyətli 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Bir sıra tarix diyarşünaslıq muzeyləri yerlə yeksan olunmuş, qızıl və gümüş ziynət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar, digər qiymətli ekspontlar Ermənistana daşınmışdır. Şuşadakı məşhur tarix muzeyinin də taleyi belə olmuşdur.

Bir sözlə, hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında Haaqa Konvensiyasının və Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında Paris Konvensiyasının müddəalarını kobudcasına pozan Ermənistan Respublikası Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Zəngin folklor, musiqi, ədəbiyyat nümunələrimizi ardıcıl və sistemli şəkildə mənimsəyən erməni millətçiləri əslində işğalçılıq müharibəsini həm də mədəni sərvətlər müstəvisində genişləndirir, Azərbaycan bəstəkarlarının əsərlərini, xalq mahnı və rəqslərimizi də özününküləşdirirlər. Ermənistanın hüquqazidd əməlləri ilə bağlı Ümumdünya Əqli Mülkiyyət Təşkilatına dəfələrlə müraciət olunmuşdur.

Təəssüf ki, bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdən bəri dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına görə, dövlətlərin sərhədlərinin

toxunulmazlığına hörmət edilməlidir və ərazi bütövlüyünün, suverenliyin pozulması yolverilməzdir.

Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağ ərazisi üzərində yurisdiksiyası BMT, ATƏT, Avropa Şurası, habelə digər nüfuzlu beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən dəfələrlə təsdiq edilmişdir. Lakin Ermənistan Respublikası beynəlxalq hüquq normaları və dünya birliyinin mövqeyi ilə hesablaşmır. BMT Təhlükəsizlik Şurasının İşğal olunmuş Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə məlum 822, 853, 874 və 884 saylı Qətnamələri, BMT Baş Məclisinin "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı 14 mart 2008-ci il tarixli Qətnaməsi, habelə AŞPA-nın Azərbaycan ərazilərinin erməni hərbi qüvvələri tərəfindən işğal edildiyini və Dağlıq Qarabağ regionunun separatçı qüvvələr tərəfindən idarə olunmasını təsdiq edən 1416 saylı Qətnaməsinin və 1690 saylı Tövsiyənin qəbul edilməsinə baxmayaraq, Ermənistan işğal olunmuş torpaqları azad etmir.

Azərbaycan Respublikasının Prezidenti bu münaqişənin sülh yolu ilə həllinə daim səy göstərərək, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına, soyqırımını həyata keçirənlərin, insanlar və xalqlar arasında nifaq və düşmənçilik salanların ifşasına nail olacağımızı yüksək kürsülərdən dəfələrlə söyləmişdir. .

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq bəyan edirəm ki, Ermənistan Respublikası tərəfindən ölkəmizin ərazi bütövlüyünün pozulması, əzəli torpaqlarının işğalı, həm də dünya mədəniyyətinin inciləri, misilsiz sivilizasiya nümunələri sayılan memarlıq abidələrinin dağıdılması və mənimsənilməsi, insan hüquqlarının, o cümlədən mədəni hüquqların kütləvi şəkildə, kobudcasına pozulması hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə ziddir.

Bütün bunları nəzərə alaraq, dünya birliyini, nüfuzlu beynəlxalq təşkilatları Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə, terror siyasətinə, insan hüquqlarının kütləvi şəkildə pozulmasına son qoyulması, bu münaqişənin sülh və danışıqlar yolu ilə həllinə dəstək verilməsi, zəbt olunmuş torpaqların qaytarılması, yüz minlərlə qaçqın və məcburi köçkünün öz yurdlarına dönməsi, onların hüquqlarının bərpa edilməsi istiqamətində səylərini artırmağa çağırıram. Bu, həm də Qafqazda sülhün, əmin-amanlığın bərqərar olunmasına, dinc yaşam tərzinin bərpa edilməsinə, davamlı inkişafın təmininə təkan verərdi.

Erməni terrorçuları və onların havadarları tezliklə cinayət məsuliyyətinə cəlb edilməlidir. Beynəlxalq təşkilatların uzun illər boyu davam edən münaqişənin həllinə yönəlmiş səyləri beynəlxalq hüquq norma və prinsiplərinə uyğun həyata keçirilməli, monoetnik dövlətə çevrilmiş Ermənistan işğalçı, təcavüzkar etnik təmizləmə siyasətindən, ərazi iddialarından əl çəkərək, qəbul edilmiş mühüm sənədlərin müddəalarını yerinə yetirməli, ölkəmizin ərazi bütövlüyü, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqları bərpa edilməli, onlar öz doğma yurd yerlərinə qayıtmalı, əsir və girovlar azad olunmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən Ermənistan dövlətinə qarşı sanksiyalar tətbiq edilməlidir.

**prof. Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)
**Bakı şəhəri,**
03 may 2012-ci il

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, YUNESKO-nun Baş Direktoruna, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.